# Azərbaycan Xalq Parlamenti

**Address:** **169 63 Solna, Sweden** **Phone: +4915205921770** **e-mail:** info@azxp.org
**Web:** www.azxp.org

**Azərbaycan Xalq Parlamentinin**
**azxp.org saytnın redaktoru Niftəliyev Fəxrəddin Qaraxan oğlunun AzXP Nizamnaməsinin tələblərinə tabe olmaması və azxp.org saytnın ləğvi barədə**

**QƏRARI**

Azərbaycan Xalq Parlamentinin Nizamnaməsinin 6.7.1-ci maddəsinə əsasən, azxp.org sayt Azərbaycan Xalq Parlamentinin mülkiyyətidir və Parlamentin rəsmi informasiya platforması kimi fəaliyyət göstərir.

AzXP Reqlamentinin 30.1-ci maddəsinə görə, Parlamentin qəbul etdiyi bütün qərarlar 3 gün müddətində azxp.org saytnda dərc edilməlidir.

AzXP Reqlamentinin 16.3-cü maddəsinə əsasən, millət vəkilinin mandatdan imtinası barədə bəyanat müzakirəsiz qəbul edilir və bu barədə məlumat azxp.org saytnda və digər KİV-lərdə dərc edilməlidir.

2025-ci il 29 noyabr tarixində keçirilmiş və canlı yayımlanmış iclasda 4 (dörd) millət vəkili mandatdan imtina etmişdir. Reqlamentin tələblərinə uyğun olaraq onların mandatdan imtina etməsi barədə məlumat azxp.org saytnın rəhbərliyinə göndərilmiş, lakin sayt rəhbərliyi bu məlumatn dərc edilməsindən açıq şəkildə imtina etmişdir. Bu, Azərbaycan Xalq Parlamentinin Nizamnamə və Reqlamentinin tələblərinin kobud şəkildə pozulması, həmçinin Parlamentə qarşı sabotaj və təxribat kimi qiymətləndirilir.

Nizamnamənin 6.7.4-cü maddəsinə əsasən, azxp.org saytnın rəhbəri Parlamentin sadə səs çoxluğu ilə və ya İntizam Komissiyasının qərarı ilə tutduğu vəzifədən kənarlaşdırıla bilər. Nizamnamənin 10.3-cü maddəsinə əsasən, Parlament buraxılarkən onun balansında olan bütün əmlakı Azərbaycan dövlətinin büdcəsinə verilir ki, bu da azxp.org saytnın əsl sahibinin Azərbaycan xalqı olduğunu təsdiq edir.

Yuxarıdakıları nəzərə alaraq Azərbaycan Xalq Parlamenti Qərara alır:

1. Azxp.org saytnın rəhbəri Niftəliyev Fəxrəddin Qaraxan oğlunun resursun fəaliyyətindən Nizamnamə və Reqlament tələblərinə zidd olaraq şəxsi maraqları naminə istifadə etməsi, habelə Parlamentin qərarlarının dərcindən imtina etməsi Azərbaycan Xalq Parlamentinə qarşı sabotaj kimi qiymətləndirilsin. Onun bu hərəkətləri AzXP Nizamnaməsinin müddəalarına kobud şəkildə əməl etməmək kimi dəyərləndirilsin. Azxp.org saytnın Nizamnamə və Reqlamentdən kənar istənilən məqsədlə istifadəsi isə Azərbaycan xalqına məxsus əmlaka zərər vurmaq və Parlamentin fəaliyyətinə təxribat xarakterli müdaxilə kimi qəbul edilsin və azxp.org sayt ləğv edilsin.

2. Azərbaycan Xalq Parlamentinin yeni saytnın yaradılması, məlumatların operativ dərc edilməsi və sayta nəzarət üçün müvəqqəti administrator təyin edilməsi Azərbaycan Xalq Parlamentinin Rəyasət Heyətinə həvalə edilsin.

3. Bu qərar qəbul edildiyi andan qüvvəyə minir və icrası Azərbaycan Xalq Parlamentinin Rəyasət Heyətinə tapşırılır.

Xatirə Cəbrayılova

**Azərbaycan Xalq Parlamentinin Sədri**

13.12.2025